# Musa Nağıyevin kişi sözü

**I YAZI**

**❍ ...Bu fayton sanki gecənin səssizliyini yarıb keçmişdi. Atların nalı yola döşənmiş qəmbərlərə çırpılır, səslər "Telefonnı" küçəsində qəribə əks-səda verirdi. Ağzından buxar çıxan atlar ara-sıra fınxırdıqca zınqırovlar daha gur səslənir, ləngər vuran faytonun cırıltısını batırırdı.**

**Bakı küçələrində gecənin bu aləmində qaradovoylardan başqa kimsəyə rast gəlməzdin. Onlar da şütüyən faytonun sərnişinlərini görən kimi farağat dayanıb hərbi salam verirdi. Faytondakıları hamı tanıyırdı. Arxa oturacağa qısılmış, başına qara buxara papaq qoymuş, əlində qiymətli əsa olan yaşlı adam məşhur Bakı milyonçusu Ağa Musa Nağıyev idi. Onunla üzbəüz dostu, Quba meydanındakı qoçu yığıncağında öz mərdliyi ilə ad çıxarmış qoçu Ağaəli əyləşmişdi. Ağalar az əvvəl Krasnovodski (indiki S.Vurğun) küçəsindəki Nağıyevə məxsus "Qış klubu" kazinosundan birlikdə çıxmışdı. Ağa Musanın avtomobili olsa da, sürücünü evə buraxmışdı, çünki faytonda gəzməyi çox xoşlayırdı.**

Şəhər çoxdan yuxuya dalmışdı, ancaq qaranlıq küçələrdə qaradovoylar səhərə qədər keşik çəkirdi. 1910-cu ilin Bakısı qaynar qazana bənzəyirdi. Hər gecə evlərin divarlarına bolşevik vərəqələri yapışdırılır, fəhlələr tətilə çıxır, quldurluq, adam oğurluğu, sui-qəsdlər baş alıb gedirdi. 1906-cı ildə imperator Nikolayın fərmanı ilə bir neçə şəhərdə, o cümlədən Bakıda şəhər rəisliyi - qradonaçalstvo yaradılmışdı. Cəlladlığı ilə məşhur olan Markelov şəhər rəisi təyin olunsa da, xaosun qarşısını almaq mümkün deyildi.

Bütün bu qarışıqlığa baxmayaraq, cənub şəhəri sürətlə inkişaf edirdi. Neft və milyonlar səltənətində fontan vuran quyuların sayı günbəgün artır, yeni fabrik və zavodlar açılır, park və xiyabanlar salınır, mərkəzi küçələrdəki ağ neft fonarlarını elektrik çıraqları əvəz edirdi. Yük gəmiləri Rusiyadan Bakıya ardı-arası kəsilmədən inşaat materialları daşıyırdı.

...Fayton tini burulub Bolşoy Morskoy küçəsinə çıxdı. Ağa Musa iki əllə əsaya dirsəklənib gecəboyu kazinoda eşitdiyi söhbətləri beynində saf-çürük edirdi. Yaxın dostu, Bakı milyonçusu Murtuza Muxtarov ona bugünlərdə şəhəri çaxnaşdıran bir dələduzluqdan danışmışdı. Söhbətdən məlum olmuşdu ki, quldurlar lal bir adama general libası geyindirib, özləri də "intiligent" qismində ona qoşularaq məşhur "Cavahir" mağazasına gəlib. Dükan sahibləri - Əliyev qardaşları yalançı generala hər cür sayğı və diqqət göstərərək dünyanın ən bahalı ləl-cəvahirini onun qarşısına töküb. Dələduzlar qiymətli əşyaları generalın xanımına göstərməyin vacibliyini söyləyib. "Qoy işçilərdən ikisi bizimlə getsin, xanımın seçdiyi malların pulunu da evdə ödəyərik" deyib dükan sahiblərini inandırıb. Qoçaqlar yolda qızıl-brilyant dolu çantanı götürüb aradan çıxıb. Jandarma da o biçarə lalı tutub, oğrular yazığa heç bir qara qəpik də verməyib! Deyirlər, bu işdə bolşeviklərin barmağı var. Başçıları da gürcüdür, ləqəbi də Koba! Bu quldur mədənlərdə çaxnaşma salır, adam oğurluğunda ad çıxarıb, indi jandarma hər yerdə onu axtarır.

Murtuza söhbəti belə bitirmişdi:

- Ağa Musa, zəmanə pisləşib, bu dələduzların əlindən nə desən gələr! Sən ki, bunların dabbaqda gönünə yaxşı bələdsən...

Fayton artıq Balaxanı küçəsi ilə şütüyürdü. Faytonçu "hə, hə, çər dəymişlər, tərpənin görüm" deyib atları qamçılayırdı. Murtuzanın son sözləri Ağa Musaya yaman təsir eləmişdi. O, həqiqətən bu quldurların əməllərinə yaxşı bələd idi. Bir neçə il əvvəl Ağa Musanı silah gücünə oğurlamışdılar. Quldurlar onun azad olunması müqabilində 10 min manat istəsə də, milyonçu cəmi min manat verə biləcəyini bəyan etmişdi. Oğrubaşı əvvəlcə razılaşmamışdı:

- Ağa, milyonların yanında min manat nədir ki? Yəni həyatın 10 minə dəyməz? Əgər verməsən, səni öldürəcəyik!

Ağa Musa heç kefini pozmamışdı:

- Onda heç qara qəpiyin də yiyəsi olmayacaqsız!

Oğrular Ağa Musanı 3 gün girov saxlamışdı, yaxşıca yedirib-içirtmişdi, hətta qumar da oynamışdılar, amma bu tərs adamı heç cürə yola gətirə bilməmişdilər.

- Mən samansatan Hacı Nağının oğlu Musayam! Dedim min, qurtardı!

Nəhayət, quldurlar əlacsız qalıb Nağıyevi buraxmışdılar. O da kişi kimi sözünə əməl edərək işlər müdiri Fətulla bəyə göstəriş vermişdi ki, oğrulara min manat pul göndərsin...

Hələ o zaman Qoçu Ağaəlinin əlaltıları öyrənmişdilər ki, M.Nağıyevin oğurlanması sifarişini "Koba" ləqəbli gürcü bolşevik İosif Cuqaşvili verib. Bakı milyonçuları Kobanı fəhlələr arasında çaxnaşma yaratdığına və quldur dəstəsinə başçılıq etdiyinə görə öldütdürüb Bibiheybətdəki neft quyularından birinə atmaq istəyirdi. Ancaq son anda M.Ə.Rəsulzadə bolşevik Cuqaşvilini ölümdən xilas etmişdi. 7 dəfə həbs olunmuş İosifi axırıncı dəfə Bayıl türməsindən müsavatçılar qaçırtmışdı. Yeri gəlmişkən, Stalin bu yaxşılığı unutmamış, 1920-ci ildə XI Qızıl Ordu Bakını zəbt edəndən dərhal sonra, həbsdə yatan M.Ə.Rəsulzadəni türmədən çıxartdıraraq özü ilə Moskvaya aparmışdı.

**Fərhad SABİROĞLU**

